# ƏLİ RZA XƏLƏFLİ YARADICILIĞINDA YURD HƏSRƏTİ

## (“Müasir poeziyamızda Qarabağ ağrıları” silsiləsindən)

Keçən əsrin 80-ci illərindən dövri mətbuatda şeirləri və publisistik yazıları ilə çıxış edən şair, publisist, Qabaqcıl maarif xadimi, “Kredo” qəzetinin baş redaktoru Əli Rza Xələfli bu gün əlliyə yaxın kitabın müəllifidir. Onun yaradıcılığı bir sıra doktorlar, jurnalistlər tərəfindən dəyərləndirilmiş, haqqında yazılmış məqalələr üçcilddə çap olunmuşdur... Rəngarəng Əli Rza Xələfli yaradıcılığında ən parlaq rəng yurd həsrətidir.Bu mənada şairin “Həsrət körpüsü” kitabındakı şeirlər diqqəti çəkir. Şair “Başaq buğdasıyam” adlı şeirdə yazır:

***Vətən yollarına illəri sərib,***
***Həsrət sarayının taxtına çıxdım.***
***Əzab çəmənindən min tikan dərib,***
***Təltiflər yerinə sinəmə taxdım.***

Bu, şairin Araz dərdidir.Uzun illər Xudafərindən o taya boylanan, bir gün bu həsrətin bitəcəyinə, yolların açılacağına, doğmaların görüşəcəyinə inanan şair birdən-birə Qarabağ həsrətinə tuş gəlmişdir. Doğma yurdu Cəbrayılın, ümumilikdə Qarabağ torpağının düşmən tərəfindən işğalı, ellikcə didərgin düşmələri, çoxlu itki vermələri, illərlə yurd yerinə həsrət onun Araz dərdinə yeni bir dərd əlavə etmişdir ki, bu da şairin yaradıcılığında bütöv bir mövzuya çevrilmişdir. F.e.d. Vaqif Yusifli “Həsrət körpüsü - şair ürəyi” adlı məqaləsində “Bu həsrət körpüsünün adı Xudafərindir” deyən şairin dərdinə, həsrətinə şərik olur və yazır: “Əli Rza Xələflinin şeirlərində Dərdin ünvanı Vətəndir, başı bəlalar çəkmiş Azərbaycandır. O hətta yuxusunda da “tarix dərəsindən dağa dırmaşır”, “müqəddəs ruhlar” onu intiqama çağırır. İstər yuxuda olsun, istər reallıqda, onun şeiri bir dərd üstə köklənir - onun adı Qarabağdır - Vətəndir”.

Doğma Cəbrayıldan, Xələfli kəndindən ayrılan, uşaq vaxtı ayaqyalın gəzdiyi meşəni, çəməni, düzü, dərəni ancaq yuxularında görən, içini bir ağrı-açı, bir həsrət didən şair nə qədər ağrısa da, yansa da, yenə bu həsrətin də bitəcəyinə inanır. Onun “Adına tapın” adlı şeirində hər kəsin öz adına tapınmasının, xeyir işlər görməsinin, sədaqətli, etibarlı olmasının, halallıqla yaşamasının dünyanın yükünü yümgülləşdirəcəyinə inanan şair sonda yazır:

***Əzab dərəsini qeyrətlə keçsən,***
***Qəlbində duyarsan Vətənin səsin.***
***Sükut vadisində sən zəhər içsən,***
***Şərəfdir, əllərin qoy titrəməsin.***

***İtənlərə soraq salıb arasaq,***
***Bizdən bac istəməz hünər yolumuz.***
***Əmanəti, etibarı qorusaq,***
***Bir gün Qarabağa dönər yolumuz.***

Bu nikbin notlar şair ruhuna mələklərin pıçıldadığı reallıqdır.Şairin ümidi böyükdür.Çünki İlahi ədalətə inanır, bir gün bu düyünlərin çözüləcəyinə, bizim qalib gələcəyimizə inanır. Mərhum şairimiz İskəndər Etibar “Yanan ürək” adlı məqaləsində yazır: “...Əli Rza Xələflinin “Həsrət körpüsü” kitabını vərəqlədikcə bu xəzinədə Vətənə, millətə, yurda bağlılıq görür, ürək çırpıntılarını eşidirdim. Mənə görə, şairi digərlərindən fərqləndirən də bunlar və onun özü üçün yox, başqaları üçün, Vətən, millət, bəşəriyyət və dünya üçün yaşamasıdır”.

Xələflinin Qarabağ dərdi heç də Araz dərdini ona unutdurmur.Sadəcə bir dərd iki olur və şair ürəyi bu qoşa həsrəti yaşamağa özündə dözüm tapır.Allahın verdiyi qələm onun köməyinə çatır.Şair qılınca sarılmağın qeyri-mümkün olduğunu bilir və qələmə sarılır.Göyçə dərdini, Qarabağ ağrılarını qələmə alır.“Sarı sim üstdə” şeirində yazır: ***“Göyçə göz dağıdır, üzülməz qoldu, Təbrizə həsrətik, kəsilmiş yoldu. Qarabağ çanağı qan ilə doldu, Bu dərdi sən çağır sarı sim üstdə”.*** Vətən dərdilə, yurd həsrətilə yaşayan şairin ürəyi çox narahatdır. O, sözü ilə əməlinin bir olmadığı bədxah düşmənin məkrindən, hiyləsindən qorxur, ürəyinin dərdə dözümünün tükənməsindən qorxur, fələyin çərxinin kəc dolanmasından qorxur. Şair Araz boyu ağı səsi eşidir, Xudafərinin sınıq tağını xatırlayır, daim Qarabağın taleyini düşünərək yazır:

***Xələflini yandıran var, yaxan var,***
***Göyçə gülü dərən olsa, taxan var.***
***Soydaşına qanlı-qanlı baxan var,***
***Qarabağın taleyindən qorxuram.***

Şair qorxu içində bu ağrı-acını yaşaya-yaşaya qəlbində bir ümid işığı yandırmağa çalışır.Haqqın qələbəsinə inanan şair, məhz bu inamıyla dözüm tapır. F.ü.f.d. Əkbər Əlioğlu “Həsrət göyərirsə...” adlı məqaləsində yazır: “Biz onun ocağımın işığı” adlı ilk şeirlər kitabıyla təəssüf ki, tanış ola bilməmişik. Səhv etmirəmsə, televiziyada təqdimat mərasimindən fraqmentə baxmışam.Lakin qətiyyətlə deyə bilərəm ki, onun ikinci şeirlər kitabı - “Həsrət körpüsü” kitabı günümüzün ədəbi hadisəsi” sayıla bilər.hətta gözləmək olar ki, tələbəlik illərindıə Müşfiqə oxşatdığımız və həsrətin göyərtdiyi şair qardaşımız Əli Rza çağdaş poeziyamızın fenomen ünvanlı şairi ola bilər”.

Əli Rza Xələflinin “Şairin mükafatı” adlı bir dördlüyü də maraq doğurur:

***Körpü həsrətini yazan şairin,***
***Çəkdiyi əzabın rəngini tapın.***
***Həsrəti gözündə gəzən şairin***
***Ağrı-acısına bir heykəl yapın.***

F.e.d. Nizaməddin Şəmsizadə “Həsrət körpüsünün müsafiri” adlı məqaləsində yazır: “Ə.Xələfli həsrət körpüsündən keçib ağrı yaddaşına gedən bir müsafirdir”.

Şairin “Ağrı” kitabındakı vətənpərvərlik mövzusunda qələmə aldığı şeirlər də öz bədii siqləti, mövzunu əhatə etməsi, obrazları, ilə diqqəti cəlb edir.Burada da şair ürəyinin həsrəti, Qarabağ ağrı-açılarının əlvan boyalarla obrazlı ifadəsini görürük. Kitabdakı “Yaddaşdan yarpaqlar” adlı şeirində xatirələri qorlanan, sinəsi odlanan, xəyalın dağlara çəkdiyi, dumanlarda azdırdığı, kədərin sirdaş seçdiyi şair bu ağrı dastanını yazmaq üçün əlinə qələm götürür və yazır:

***Ürəyimin tellərindən misra-misra qopararam,***
***Qan-qırmızı əklil tutub yurd yerinə apararam.***

Şair “Ey Tanrım” adlı münacatında Allahdan qəlbını işıq verməsini istəyir ki, gəldiyi yolları geri yayıda bilsin, hər cığırı, yolu oyada bilsin.Şair çiçəkləyən ağrıların, yaddaşı qanadan xatirələrin sorağına çıxır.Şair “Həsrəti daşında göyərən yurda” getmək istəyir. Şair “Ruhumu çağıran səs”də bu səsin onu dərd ölkəsinə aparmaq istədiyini, həmin səsə qoşulub dərələri ilan ağzında keçdiyini, hədrətlə nəfəs-nəfəsə yeriyib ümidləri yalan ağzında gördüyünü, dərilməyə həsrət qalmış yemişanın, qaragilənin, böyürtkənin onu səsləyib “qonaq ol” dediyini bildirir və təəssüflə yazır:

***Burda gəl-gəl deyən barın, bəhərin***
***Bir dərim həsrəti, dərdi gülgündür.***
***Bu da xarı bülbül - qəmin, qəhərin***
***Gülü çoxdan solub, özü küskündür.***

***Başımın üstündə Tanrının daşı,***
***Sinəmdə illərin həsrət yükü var.***
***Bir qələm, bir kağız - ağrı yaddaşı -***
***Ruhumda çal-çağır - toy, mağar qurar.***

Tarix elmləri doktoru, şair Şahin Fazil “Özünə bənzəyən adam” adlı məqaləsində yazır: “...Hazırda Əli Rzanın “vətən mövzulu şeirləri” daha könkretləşib. İndi bu adamın, bu şairin, bu vətəndaşın şeir kredosu qarabağdır.Müvəqqəti(mən buna inanıram) əlimizdən çıxmış Qarabağdır onun yaradıcılıq kredosu. Əgər onun bu mövzulu şeir və publisistik məqalələrini bir yerə toplasaq böyük həcmli “Qarabağnamə” alınar zənnindəyəm...”.

“Ağrı” kitabındakı “Bir çinarın nəğməsi” də həsrətə bələnib.Şair dağılmış şəhərdə həsrətin budaqbudaq yandırdığı, qolları qırılmış, bağrı qana dönmüş, gövdəsi qurumuş, həsrətdən dağlanmış Xan çinardan söz açır.Şair bir zamanlar bu yurda bəzək olan, şanşöhrət olan, əzəmətli, qürurlu, sevənlərə xeyir-dua verən Xan çinarın ağrısından, yaralarından danışır. Şair qüruru əyilməz, çökməz yaraladan, sükut bunu sındıran, dağıdan yaralardan, illər uzunu göynəyən yaralardan, uçulmaz daş, bürcü basılmaz qala olan, vətənə dərd, bəla olan yaralardan söz açır və yazır:

***Yara var kitabdır, oxuyan olsa,***
***Gələn nəsillərə ibrət öyrədər,***
***Yara var, yaddaşda yaşasa, qalsa,***
***Bir zaman tarixə şahidlik edər.***

***Suallar ağrıdır, nöqtələr yara,***
***Hər sözün sonunda həyəcan nida!***
***Bir gün ayrılıqlar bitə, qurtara,***
***Bircə, ey ürəyim, demə, əlvida!***

Əli Rza Xələflinin “Bu dünyanın mehmanısan” adlı kitabında da yurd həsrətini, vətən təəssübkeşliyini əks etdirən şeirlər vardır.Kitab bir həkimə həsr edilsə də, əslində bu əsərdə bu dünyanın bir çox mehmanları da xatırlanır.Burada da şairin Cəbrayıl həsrətinin şahidi oluruq. Şair yazır:

***Min göynəm içində göyüm oyandı,***
***Bir teyçi... əlində yara deşirdi.***
***Ürək parça-tikə kababa döndü,***
***Zaman şişə çəkdi, dövran bişirdi.***



***Cəbrayıl... qəlbimin odu, atəşi,***
***Gözümdə həsrətin vətən daşısan.***
***Bəd gəldi zamanın işi, gərdişi,***
***Yaddaşın göyərən, bitən daşısan.***

Gənc tədqiqatçı Yeqzar Cəfərli “Xudafərin həsrəti” adlı məqaləsində yazır: “Əli Rza Xələfli də “Mən vətənəm, Vətən məndən başlayır” deyir. Şairin fikrincə, Vətəni yaşatmaq o deməkdir ki, qədim ellinlər kimi onun adət-ənənələrini, dilini harda olmasından asılı olmayaraq yaşada biləsən.vətəni özünə ilk və son mənzil biləsən. onun gənc nəslə aşıladığı hisslər budur”.

Əli Rza Xələflinin “Həsrətdən üzü bəri” adlı şeirlər topludsunda da vətənpərvərlik duyğularına bələnmiş şeirlər vardır.Kitab “Azərbaycan” şeiri ilə açılır.- Mövzu çox ağrılıdır. Şair Azərbaycana müraciətlə deyir: “Duman, çiskin çökən gözlərimsən, büküm-büküm dizlərimsən, sinəmdə Qarabağ dərdindən ocaq yanır, közlərimsən, daş asılan ayaqlarım, izlərimsən, ... şəhid-şəhid saya gəlməz yüzlərimsən”. Bu kinayə Azərbaycanı bu günlərə qoyanlara şairin mesajıdır. Şeir belə bitir:

***Arzuları gözlərimdə edam edən, güllələyən***
***Donuq-donuq sifətlərdə buzlarımsan, Azərbaycan.***

***Qələm-qələm sınıq düşən Xələflinin ürəyi qan,***
***Kəlmə-kəlmə qan ağlayan sözlərimsən, Azərbaycan!***

Əli Rza Xələflinin vətənpərvərlik duyğularını əks etdirən bayatıları da maraqlıdır.

***Dərdimə həmdəm ağlar,***
***Yad gülər, həmdəm ağlar.***
***Vətən sarı qəribin***
***Gözləri hər dəm ağlar.***

F.e.d. Qəzənfər Paşayev “Xələflinin bayatı çələngi” adlı məqaləsində yazır: “Şair, publisist, bir çox poema, şeir topluları, monoqrafiya və roman müəllifi Əlirza Xələflinin də qələmini bayatı janrında sınaması maraq doğurur. Onun”Bayatı çələngi” əlyazmasını vərəqlədikcə gözlərimin önündən Vətən xəritəsi, onun dağları, çayları, obaları, gözəl Qarabağı, Cəbrayılı, Füzulisi, Ağdamı, Şuşası və s. canlandı. Hər şeydən əvvəl onu deyim ki, şair ortaya bayatı janrının tələblərinə tam cavab verə biləcək bir əsər qoymuşdur. Əli Rza Xələflinin əsərində bayatıların əvvəlinə “Əziziyəm”, “Mən aşiq”, “Aşiq” kimi sözlərin artırılmasına təsadüf edilmir”

Əli Rza Xələflinin vətənpərvərlik mövzusunda yazdığı bütün əsərlərindən danışsaq, bir kitab alınar.- Biz burada onun sadəcə əlimizdə olan bir neçə kitabına müraciət etdik.Vətəndaş şairin torpaq, millət təəssübkeşliyinin, eyni zamanda gələcəyə böyük ümidinin şahidi olduq. Artıq Qarabağ, şairin doğma yurdu Cəbrayıl düşməndən azad olunmuşdur. Şairə qələbə şeirləri ilə dolu kitablar arzulayırıq.

***Sona Xəyal***
***(“Bütöv Azərbaycan” №03 (430)***
***20 yanvar 2022***